“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 07 (07) ✦ 30 dekabr 2024-cü il










## Daxili işlər naziri Vilayət Eyvazov Balakən rayonunda növbəti vətəndaş qəbulu və sıra baxışı keçirdi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabr ayının 3-də və 4-də Balakən Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirdi.

Nazir Vilayət Eyvazov əvvəlcə rayon rəhbəri İslam Rzayevlə birlikdə Balakən rayonundakı ümummilli lider Heydər Əliyevin dağüstü parkdakı abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad etdi. Sonra Balakən Rayon Polis Şöbəsinin inzibati binasında Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ şəhər və rayonlarından qəbula gələn 194 vətəndaşın müraciətini dinləyərək onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verdi. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görüşdü. Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verdi.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Zaqatalada yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlandı. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət etdi.

Sonda general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirdi. Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 198 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**YENİ BALAKƏN**



## Elm və Təhsil naziri Balakəndə vətəndaş qəbulu həyata keçirdi

Dekabrın 6-da Elm və Təhsil naziri Emin Əmrullayev Balakən şəhərində vətəndaşları qəbul etdi.

Qəbulda iştirak edənlər əsasən Balakən, Zaqatala, Qax, Qəbələ, Şəki və Oğuz sakinləri idi.Qəbuldan əvvəl rayon rəhbəri İslam Rzayev və nazir Emin Əmrullayev dağüstü parkdakı ulu öndər Heydər Əliyevin abidəsini çiçəklərlə ziyarət edərək xatirəsini dərin ehtiramla andılar.

Qəbul zamanı vətəndaşlar işlə təmin olunma, təhsil müəssisələrinin təmir-tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər etdilər.

Elm və Təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verdi.

**YENİ BALAKƏN**
















# 12 Dekabr. Ulu öndəri sevgiylə anırıq





Bu gün ulu öndər Heydər Əliyevin anım günüdür. Müasir Azərbaycanın qurucusu, bu günkü möhtəşəm Azərbaycanın memarı olan Heydər Əliyevə xalqın sevgisi əbədidir.

Bu bariz sevginin bir nümunəsidir: Səhər saatlarından başlayaraq Balakən ictimaiyyəti kiçiyindən böyüyünə, iş adamından hökümət məmuruna, kəndlisindən şəhərlisnə hər kəs ulu öndərin dağüstü parkda yerləşən abidəsini çiçəklərlə ziyarət edərək xatirəsini dərin ehtiramla yad etdilər. Gün yarıdan keçsə də ziyarətçilərin gəlişi davam edirdi. Qədir bilən Balakənlilər Heydər Əliyev yolunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında hər zaman sıx birlə- şərək, ona dəstək olaraq, ölkədəki bütün siyasi proseslərdə fəal iştirak edərək ulu öndərə olan sevgisini, sədaqətini nümayiş etdirirlər...

Günün yarısında "Balakən" şadlıq sarayının böyük zalında, Balakən Rayon İcra Hakimiyyəti Heydər Əliyevin ruhundan ehsan verdi.

**YENİ BALAKƏN**

---

# Bakı-Balakən sürət qatarı tezliklə istifadəyə veriləcək




Bakı-Balakən dəmir yolu xətti bu ilin axırı və ya gələn ilin əvvəli açılacaq. "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov deyib ki, bu istiqamətdə hazırlıq işləri aparılır.

"Artıq deyə bilərəm ki, buna sayılı günlər qalıb. Tezliklə ilk qatarın fəaliyyətə başlayacağı tarixi açıqlayacağıq. Hazırlıq işləri tamamlanmaq üzrədir: infrastruktur tam hazırdır, stansiyalarda təmir işləri yekunlaşır. Yaxın vaxtlarda bunun şahidi olacağıq"- deyə Rövşən Rüstəmov bildirib..

Bu barədə danışan Balakən rayon millət vəkili Nəsib Məhəməliyev bildirib ki, bu, olduqca xoş xəbərdir: "Bildiyimiz kimi Yevlax-Balakən dəmiryolu xətti Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə tikilmiş dəmiryolu xəttidir. 1985-ci ildən başlayaraq uzun illər ərzində dəmiryolu şimal-qərb istiqamətində yerləşən Şəki, Qax, Zaqatala, Balakən rayonlarının sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayıb. O zamanlar həmin rayonların iqtisadiyyatının inkişafına, sosial həyatında çox böyük dəyişikliklərə nail olan bir dəmiryolu xəttidir. Həmin rayonlarda çoxlu sayda sosial obyektlər, inzibati binalar tikildi, infrastruktur layihələr icra olundu. Xatırlayıram ki, Yevlax-Balakən dəmiryolu xətti istifadəyə verilənə qədər o bölgənin insanları Gürcüstanın Çnori stansiyasından, yeni Balakəndən 65 kilometr aralıda olan bir stansiyanın imkanlarından istifadə edirdilər. O zamanlar SSRİ adlanan dövlətin tərkibində olduğumuz üçün bütün yüklər oraya gəlir və oradan göndərilirdi. Dəmiryolunun yaradılmasından sonra istehsalat sahələri yaradıldı, zavod və fabriklər tikildi. Keçmiş SSRİ-yə daxil olan və daxil olmayan bəzi dövlətlərə yüklərin alınması və göndərilməsi prosesi başladı".

Millət vəkili bildirib ki, son dövrlər yolun istismara yararsız vəziyyətə düşməsi, pandemiya dövründə sərnişin qatarlarının hərəkətinin dayandırılması əhali arasında narahatlıqlar yaradırdı:



"Mən Milli Məclisin iclaslarında bununla bağlı məsələ qaldırmışam, cənab Prezidentə və və Baş nazirə rəsmi müraciət etmişəm ki, Bakı-Balakən sərnişin qatarının bərpası əhəmiyyət kəsb edir. Çox sevinirəm ki, cənab Prezidentin tapşırığı ilə Bakı-Balakən sərnişin qatarı yeni, sürətli formatda fəaliyyətə başlayacaq. Bu bütövlükdə şimal-qərb bölgəsinin gözlədiyi hadisədir. Mən həmin bölgənin insanları adından cənab Prezidentə təşəkkür edirəm. Eyni zamanda insanlarımızı təbrik edirəm ki, Bakı-Balakən sürət qatarı öz fəaliyyətinə başlayacaq, insanlara xidmət edəcək. Hamı tərəfindən gözlənilən dəmiryolu olduqca rahat nəqliyyat vasitəsidir. Nəzərə alsaq ki, Bakı-Balakən arasındakı məsafə təqribən 460 kilometrdir, bu olduqca müsbət hadisədir".

**YENİ BALAKƏN**

---

# Balvkəndə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində növbəti ağacəkmə aksiyası keçirilib



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Yevlax-Zaqatala - Gürcüstan dövlət sərhəddi avtomil yolunun Balakən rayonu ərazisində yolun kənarlarında növbəti ağacəkmə aksiyası keçirilib. Bununlada cari ildə rayon ərazisində əkilmiş ağacların sayı 9176 ədəd olmuşdur.

Zəhməti olan hər kəsə təşəkkür edirik.

**YENİ BALAKƏN**



# Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə Balakəndə “Sağlam Həyat” mövzusunda idman tədbiri keçirildi



Gənclər və İdman Nazirliyinin təşəbbüsü və Balakən Gənclər İdarəsi, Gənclər Evi,Təhsil idarəsi, Balakən OİK-nin təşkilatçılığı ilə Balakəndə, Mədəniyyət və İstirahət parkında "Sağlam Həyat" mövzusunda idman tədbiri keçirildi. Nazirliyə məxsus səyyar açıq hava idman zalı avadanlıları parkda quraşdırılaraq Balakəlilərin istifadəsinə verildi. 6 yaşdan 70 yaşadək sakinlərin idman edə, gücünü sınaya biləcəyi növlər arasında voleybol, stolüstü tennis, boks, basketbol, ağır atletika, qaçış, uzağa tullanma, uzağa ağırlıq atma, şahmat, yüngül atletika və digər idman növləri vardı. Yarış iştirakçıları əvvəlcə










qeydiyyatdan keçərək hakimlərə yaxınlaşıb qeydiyyat vərəqlərini təqdim edirlər, sonra isə yarışa başlayırlar. Hakimlər yarışın nəticələrini vərəqələrə qeyd edir və bunun əsasında iştirakçılara qızılı, gümüşü və bürünc kateqoriyada sertifikatlar təqdim olundu.Tədbir iştirakçılarından 150 nəfəri yarışda iştirak edərək gücünü sınadı və sertifikatları aldılar. İştirakşılardan şəhid anası Validə xanım Əlisoltanova şahmat yarışını qazanaraq qızıl sertifikata sahib oldu.

**YENİ BALAKƏN**

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Balakəndə Məişət zorakılığı mövzusunda tədbir keçirdi



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2024-cü il ərzində Tədbirlər Planına əsasən rayon icra hakimiyyətlərinin Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupları üçün məişət zorakılığı mövzusunda təlimlərin keçirilməsi nəzərdə tutulmuşdur. Mövzu ilə bağlı, tədbirlər planında nəzərdə tutulan tədbir Balakən rayonunda keçirildi. Təlim xarakterli tədbirdə Balakən, Zaqatala, Qax, Şəki, Oğuz rayon İcra Hakimiyyətlərində yaradılmış Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrup rəhbərləri, üzvləri, məhkəmə əməkdaşları, bələdiyyə sədrləri, təhsil və səhiyyə nümayəndələri iştirak etdilər. Balakən şəhər UİM-nin böyük zalında keçirilən tədbir öncəsində iştirakçılar ulu öndərin abidəsini ziyarət etdilər, ulu öndəri və vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərimizi bir dəqiqəlik sükutla,dərin ehtiramla andılar. Tədbiri giriş sözü ilə Balakən Rayon İcra Hakimiyyətinin Humanitar məsələlər üzrə şöbəsinin müdiri Nəzakət Rüstəmova açaraq sözü Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanovaya verdi. Öncə təlim haqda slayd izlənildi, məişət zorakılığı haqda qanunlarda olan dəyişiliklərdən, yeniləmərdən məlumatlar verildi, mövzu ətrafında çıxışlar dinlənildi, təkliflər səsləndirildi. Daha sonda sədr müavini Sədaqət Qəhrəmanova beş rayonunun hesabatını qəbul etdi.








**P.S.** Tədbir Balakən şəhər Uşaq İncəsənət Məktəbində keçirildiyindən, o məkanda keçirilən bu cürə böyük tədbirlərdə rayonun üzünü ağardan, qonaqları yüksək səviyyədə qarşılayıb qonaqladan və yola salan ev sahibi, məktəbin direktoru Arifə xanım Tağıyeva yenə də öz ampulasında, Balakənin yüksək qonaq qarşılama mədəniyyətini ən zərif şəkildə göstərməkdə idi. (Yeni bu o demek deyil, hər yoldan ötən tədbiri ora salasınız.)

**YENİ BALAKƏN**



# Balakənlilərə xidmətdə uğura imza atan "UĞUR" klinikası

Balakənlilər təbiət etibarıyla saf,ürəyi açıq,səmimi,istiqanlı,dostcanlı,gözəl insanlardır.Təbiəti də gözəl olan Balakənlilər sadəcə özünə deyil,hər kəsə hər şeyin ən yaxşısını,mükəmməlini istərlər.Gördüyü işlərində,xidmətlərində güvən,dürüstlük,ədalət,keyfiyyət və insanlıq hər zaman ön plandadır.Bu dəyərlərlə uğur qazana bilərsən..

Mən sizi bir başqa "UĞUR"a aparmaq istəyirəm,Balakən şəhəri Heydər Əliyev prospektində,"Asan Xidmət"lə üzbəüz yerləşən "UĞUR Med" klinikasına. "UĞUR" klinikası Balakənin ilk özəl klinikasıdıir. Doktor Xanım Həsənovanın təsisçiliyində və rəhbərliyindəki klinikanın baş həkini Kantayeva Gülbəniz, təcrübəli USM (ultra səs müayinəsi) həkimi Qallacova Fatma, alternativ tibb üzrə mütəxəssis Qönçə Hüseynli və digər gülərüz, mehriban, gözəl personal sakinlərimizin xidmətindədir. Hər zaman diqqətli, yüksək mədəniyyətə malik Könül Həsənovanın apardığı dəqiq qeydiyyat və düzgün yönləndirmə sayəsində klinikada işlərin gedişi saat mexanizmasına bənzəyir. Hər dəqiqənin, bəzən hər saniyənin öz hökmü var xəstənin ağrılarında, dözümündə, səbrində. Klinikada laboratoriya (analiz), USM, ginikologiya, nevrologiya və digər əsas tibbi xidmətlərlə yanaşı alternativ tibb xidmətləri də göstərilir. Buna misal olaraq iynə batırma, hicama, massaj xidmətlərini qeyd edə bilərik. Klinikanın rəhbəri Xanım doktorla söhbət zamanı onu da öyrəndim ki, klinikada şəhid ailələrinə bütün xidmətlər ödənişsizdir, qazilərə tutarlı endirimlər var, onkoloji xəstələrə analizlər pulsuzdur. Klinika ayda bir dəfə imkansızlar üçün ödənişsiz müayinə günü təşkil edir.

Rayonun ictimai siyası həyatında, tədbirlərində fəal iştirak edən, adı da "UĞUR" olan klinikamıza, bütün işlərində uğurlar olsun!

**Ramazan ABAL**

# "Sehirli əllər"



Balakən rayon Mədəniyyət Mərkəzində, rayonda fəaliyyət göstərən sənətkarların iş təcrübəsinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi məqsədilə "amigurumi" (bir çəngəl və ya spikler vasitəsilə birləşdirilmiş kiçik yumşaq oyuncaqlar) və müxtəli əl işləri hazırlayan Qaracayeva Sevinc Elman qızı ilə görüş keçirildi. Sevinc xanım Amigurumi sənəti və hazırladığı digər əl işləri haqqında tədbir iştirakçılarına məlumat verdi, bu sənətə marağı olanlara qısa təlim keçdi.

Tədbirdə Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin Balakən rayon üzrə nümayəndəsi Şəfəq Hacıyeva çıxış edərək hər bir xalqın tarixi, yaratdığı sənətkarlıq nümunələrində öz əksini tapdığını, Balakən rayonununda da əl əməyinin tarixinin qədim zamanlara kökləndiyini, əl əməyinin nəticəsində yaranan istehsal xalq mədəniyyətinin ən qədim və çox əhəmiyyətli bir parçası olduğunu vurğulamışdır.Eyni zamanda tədbirdə sənətkarın əl işlərindən ibarət sərgi də nümayiş etdirildi.

**Zöhrə BAKEYEVA**

# Məktəblilər tibbi dispanser yoxlamadan keçiilir



Təhsil haqda qanunda nəzərdə tutulduğu kimi hər il məktəblilər tibbi dispanser yoxlamadan keçirlər. Balakən rayonunda da məktəblilər Balakən RMX-da İTS qaydalarına uyğun müayinə olunurlar. Hal hazırda bu məsələ ilə əlaqədar həkimlərimizin işi çoxdur. Yorulsalar da bunu biruzə verməyən, canla başla, tam məsuliyyətlə məktəbliləri müayinə edən həkimlərimizdən olan Arzu xanım Rəsulovanı da gərgin iş zamanı görüntüləyərək tarixin yaddaşına saldıq.

**YENİ BALAKƏN**

# Turan Tədris Mərkəzi

**Turan Tədris Mərkəzi rayonumuzun təhsili üçün son illərdə göstərdiyi yüksək nəticələri və yenilikləri ilə ən öncül tədris mərkəzi olmasını bir daha sübut edir.Qəbul imtahanlarında ardıcıl olaraq 100% nəticə verməsi bunun əsas göstəricisdir.Buna misal olaraq Turan Tədris Mərkəzinin yetirmələrinə, haralara və neçə balla qəbul olmalarına baxmaq kifayətdir:**



### *Süleymanlı Emilya Asif qızı*

Nizami adına şəhər 1 saylı tam orta məktəbi bitirib,Turan Tədris Mərkəzində 8-11-ci siniflərdə hazırlaşıb, 659.6 balla Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olaraq Neft-qaz mühəndisliyi ixtisasında (tədris ingiliscə) təhsil alır.



### *Danquyev İslam Orxan oğlu*

Qazma kənd 1 saylı tam orta məktəbi bitirib,Turan Tədris Mərkəzində 11-ci sinifdə hazırlaşıb və 646.6 balla Azerbaycan Dövlət İqtisad Universitetinə qəbul olub Komputer Mühəndisliyi üzrə (tədris ingilis dilində) təhsil alır.




### *Pirxiyeva Aysun Kamil qızı*

Amin Novruzov adına Balakən rayon Humanitar və Texniki təmayüllü liseyin şagirdi olub, Turan Tədris Mərkəzində 9_11-ci siniflərdə hazırlaşıb, 684.1 balla Bakı Ali Neft Məktəbinə qəbul olaraq Kimya mühəndisliyi üzrə (tədris ingilis dilində) təhsil alır.



### *Omarov Abdul Nurullah oğlu*

Nəsimi adına şəhər 2 saylı tam orta məktəbini bitirib,Turan Tədris Mərkəzində 9_11-ci siniflərdə hazırlaşıb,689.1 balla Bakı Ali Neft Məktəbinə qəbul olub Kimya mühəndisliyi üzrə (tədris İngilis dilində) təhsil alır.




1 Dekabr tarixində Turan Tədris Mərkəzi rayonumuzda 2-8-ci siniflər üzrə bilik yarışı imtahanı keçirdi. İmtahanda 600-dən çox bal toplamış 100 dən artıq şagird diplomlar və dəyərli hədiyyələr ilə təltif olundular. Turan Tədris Mərkəzi hər zaman olduğu kimi fəaliyyət göstərdiyi 8 illik dönəmində təhsilin inkişafına dəstək olmuş, müxtəlif sahələrdə yüksək nəticə əldə edən məzunları rayonumuzu layiqincə təmsil edirlər. Ötən tədris ilində 689 bal toplamış və rayon birincisi olmuş Omarov Abdul eyni zamanda digər məzunlar Bəyərov Elmar və Səfərli Qədri də öz sevinclərini, təbriklərini şagirdlər ilə bölüşdülər. Şagirdlərə dəstək üçün tədris müddətində mütaliə üçün müxtəlif hekayə kitabları hədiyyə olunmuşdur. Balakən Heydər Əliyev mərkəzində şagirdlər və valideynlərin iştirakı ilə keçirilən tədbirdə çıxış edən Mərkəzin təsisçisi və rəhbəri Nəriman İbrahimov TTM-nin 8 illik fəaliyyətindən, fəaliyyətindəki uğurlardan, faktiki real, yüksək nəticələrdən danışaraq, gələcəkdə də - Təhsilimzi inkişaf etdirmək və bu yolda durmadan çalışmaq bizim üçün ən prioritet məsələdir - deyə qeyd etdi.

Nə deyək; Zəhmətiniz bar verir, üz ağardır, baş ucaldır, qürurlandırır. Təbriklər, Turan Tədris Mərkəzi! Əhsən, Nəriman İbrahimov və kollektivi!

**Ramazan ABAL**

# Laborator tibbi xidmətlər



Tibbi laboratoriya bir xəstəxananın olmazsa, olmazıdır. Laborator müayinələrin nəticəsi əsasında gizli gedişə malik xəstəliklərin aşkarlanması, hər hansı patoloji prosesin olub-olmaması, xəstəliklərin müxtəlif inkişaf və sağalma mərhələlərini kontrol etmək mümkündür. Balakən RMX-nın laboratoriya şöbəsi bu mənada tam professional, məsuliyyətli və geniş əhatə dairəsində xidmət göstərir. Laboratoriya şöbəsi klinik, biokimyəvi 26 növ, seroloji 7 növ, hormonal 21 növ, mikrobioloji 2 növ, onkomarker 7 növ, hematoloji 6 növ, koaqulyasiya 4 növ, çağırışçılar üçün narkoloji testlər üzrə ixtisaslaşmışdır. Cihazlar, avadanlıqlar tam avtomat və son modeldir. Müasir xidmət tələblərinə cavab verən cihazlar analiz cavablarını birbaşa komputerə ötürür və bu da infirmasiya itkisinin, səhv ünvanlanmanın, məlumat qarışıqlığın qarşısını alr. Qapalı avtomatlaşdırılmış sistem olduğu üçün həm personal tərəfindən yarana bilən əl xətası, həm də analiz zamanı mümkün olan çirklənmə və yoluxma riski aradan qalxmış olur. Balakən RMX-nın laboratoriya şıbəsinin adi bir iş həftəsində gördüyü işlərə nəzər salsaq, bu şöbənin nə qədər gərgin, çətin və ağır işi olduğunu görərik: Həftəlik ümumi xəstə sayı 1302 nəfər.Bu 1302 nəfərə göstərilən laboratoriya xidmətinin analiz növü və sayı:Qanın ümumi analizi - 998 nəfərə, kliniki analizlər - 885 nəfərə, biokimyavi analiz - 808 nəfərə, hormo- nal analiz - 538 nəfərə, koaqloqramma - 361 nəfərə, onkomarkerlər - 21 nəfərə, infeksion analiz - 207 nəfərə, yaxma - 50 nəfərə, immunoloji analiz - 49 nəfərə, sidik - 780 nəfərə.Toplamda 4697 analiz. Balakən RMX-nın Laboratoriya şöbəsinin müdirəsi Oksana xanım Ramazanova ilə söhbət zamanı bildirdi ki, xidmətlər yəni bu analizlər pulsuzdur, İTS tərəfindən qarşılanır, vətəndaşlar çəkinmədən müraciət edə bilərlər. Xidmətlər kame- raların nəzarətində, qeydiyyatında aparılır, bu da işçinin məsuliyyətli davranması, cavabdehlik daşıdığını unutmaması üçündür.

**P.S.** Təbii ki, özəl klinikalarımızı dövlət xəstəxanalarımızla müqayisə etmək doğru olmaz. Dövlət səhiyyədə də özəl sektorun inkişafı üçün bir çox analiz növləri, müayinə sahələrini dövlət xəstəxanalarından çıxarmışdır ki, özəl sektor da fəaliyyət göstərə, işləyə bilsin. Xoş haldır ki, Balakəndəki tibb müəssisələri bir-biri ilə rəqabətdə deyil də, xeyir işlərdə yarışırlar. Xidmətdə isə biri birini tamamlayırlar.

**YENI BALAKƏN**

MƏSUL REDAKTOR:
Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100